# 194 Azərbaycan Respublikasının, Ermənistan Respublikasının, Gürcüstanın və Rusiya Federasiyasının daxili işlər nazirlikləri arasında terrorizmlə və ekstremizmin digər təzahürləri ilə mübarizə sahəsində qarşılıqlı anlaşma haqqında Memorandumu imzalamaq səlahiyyətinin verilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikasının, Ermənistan Respublikasının, Gürcüstanın və Rusiya Federasiyasının daxili işlər nazirlikləri arasında terrorizmlə və ekstremizmin digər təzahürləri ilə mübarizə sahəsində qarşılıqlı anlaşma haqqında Memorandumu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu **Usubova** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə məlumat versin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 10 mart 2000-ci il
№ 355

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1135.